# Azərbaycanlıların soyqırımı

Azərbaycan xalqı 1918-ci ilin mart-aprel aylarında baş verən dinc əhalinin qanlı soyqırımı hadisələrini heç vaxt unutmayacaq. 1918-ci ilin mart hadisələrinin təşkilatçısı və icraçıları erməni millətçiləri, Daşnaksütun partiyası və onun terrorçu birləşmələri, eləcə də əksəriyyəti erməni və slavyan millətlərin nümayəndələrindən təşkil olunmuş Bakı Kommunasının bolşevikləri idilər. Mart soyqırımını qabaqcadan planlaşdıran bolşevik-daşnak güruhu belə bir şayiə yaymışdı ki, guya Bakıda müsəlmanlar Osmanlı sultanının himayəsi ilə silahlı üsyan hazırlayırlar. Odur ki, Bakıda yaşayan ermənilər 1918-ci ilin əvvəlində Cənubi Qafqaz cəbhəsindən çıxarılmış rus əsgərlərinin silah və sursatları ilə təchiz olunurdular. Müxtəlif cəbhələrdən bolşeviklərin razılığı ilə bir neçə min erməni əsgəri də gətirilib Bakıda yerləşdirilmişdi. Vəziyyətin ağırlığını hiss edən müsəlman siyasi xadimləri qanlı qırğının qarşısını ala bilmək üçün qüvvələri səfərbər edə bilmədilər. Mart hadisələri mahiyyət etibarilə əsl soyqırımı idi. Xəzər hərbi donanmasının topları müsəlmanlar yaşayan məhəlləlləri şiddətli top atəşinə tutdular. Martın 31-də erməni başkəsənləri "Kərpicxana", "Məmmədli" və "Zibilli dərə" məhəllələrində yaşayan azərbaycanlıları tamamilə məhv etdilər. Heç kimin qaçmasına yol verməmək



üçün bolşeviklər "müsavatçıları məhv etmək" pərdəsi altında Bakı limanını ələ keçirmiş, İçərişəhəri mühasirəyə almışdılar. Aprelin 1-də erməni əsgərləri buraya daxil olaraq dəhşətli qırğınlar törətdilər. Erməni-bolşevik vandalları "Kaspi" mətbəəsini, "Açıq söz" qəzetinin redaksiyasını, "İsmailiyyə" binasını yandırmış, "Təzəpir" məscidinin minarələrini top atəşi ilə deşik-deşik etmişdilər. Üç gün ərzində təkcə Bakıda 12000-dən çox azərbaycanlı qətlə yetirilmişdi. Erməni-bolşeviklər bununla kifayətlənmədilər. Qanlı qırğınlar Andronikin, Hamazaspın, Haykın, Dronun, Njdenin, Lalayansın, Əmirovun başçılıq etdiyi quldur-terrorçu erməni dəstələri tərəfindən Azərbaycanın ətraf qəzalarında da davam edirdi. Şaumyan tərəfindən səlahiyyət verilmiş Hamazaspın başçılıq etdiyi erməni silahlı dəstələri Quba qəzasının 122 kəndini dağıtmış, yandırmış, təxminən 2000 nəfəri vəhşicəsinə qətlə yetirmişdi. Bundan sonra terrorçular Xaçmaz, Göyçay, Ağdaş, Kürdəmir, Cavad, Salyan və Lənkəran qəzalarında talanlar və qırğınlar törətmişdilər. Atarbekovun və Lalayansın erməni hərbi hissələri Şamaxı qəzasında 8000 nəfəri qətlə yetirmişdi ki, onların da 1653 nəfəri qadın, 965 nəfəri uşaq olmuşdur. Lalayansın göstərişi ilə kəndlərin birində qadınları məscidə doldurularaq diri-diri yandırılmışdılar. Burada cəmi 58 kənd yandırılmışdı. Kürdəmirdə quldurlar 56 ev və 2 məscid binasını yandırmışdılar. Mikoyanın başçılıq etdiyi dəstələr isə sonradan Şamaxıya soxularaq burada 20 kəndi dağıtmışdılar. Baloğlan kəndində isə 535 nəfər (250 kişi, 150 qadın, 135 uşaq) öldürülmüş, 69 nəfər yaralanmışdı. Navahı kəndində 1050 nəfər öldürülmüş və yaralanmışdı. Qanlı soyqırımı İrəvan, Göyçə, Cavanşir, Zəngəzur qəzalarının müsəlman kəndlərində, Naxçıvan və Qazaxda da davam etdirilmişdi. İrəvan, Göyçə və Qazaxda 200, Qarabağ və Zəngəzurda 75 kənd yandırılmışdı. Belə kədərli rəqəmləri daha çox sadalamaq mümkündür. Soyqırımı 1918-ci il sentyabrın ortalarınadək davam etmişdi. Bu soyqırımda 600 minə yaxın azərbaycanlı vəhşi erməni millətçiliyinin qurbanı olmuşdu. Erməni başkəsəni S. Şaumyan 1918-ci il aprelin 18-də bolşevik cəlladlarının başçısı V. Leninə yazdığı məktubunda daşnakların milli qırğında iştirakının bolşeviklər tərəfindən qəsdən təşkil olunduğunu etiraf etmişdi. Bu faciə Bakı Sovetinin antiazərbaycan siyasətini xalqa nümayiş etdirdi. Azərbaycanda bolşevik diktaturası qurulduqdan sonra bu qanlı hadisələr tarixin arxivinə göndərilmiş, onun əsl mahiyyəti təhrif olunmuş, soyqırımı qurbanlarının dəfn olunduğu Çəmbərəkənd qəbiristanlığı isə Dağüstü park adı ilə gəzinti və əyləncə yerinə çevrilmişdi. Yalnız Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra soyqırımı hadisəsi haqqında real tarixi faktlar ictimaiyyətə açıqlandı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli fərmanı ilə mart soyqırımına ilk dəfə hüquqi-siyasi qiymət verildi, beynəlxalq ictimaiyyətin diqqəti bu antihumanist, ümumbəşəri cinayətə cəlb olundu. Həmin fərmanla 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü elan olunmuşdur.

# Buraxılış imtahanları keçirilmişdir



13 mart 2022-ci il tarixində Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən Qəbələ rayon ümumtəhsil məktəblərinin XI sinif şagirdlərinin buraxılış imtahanı keçirilmişdir. İmtahan mərkəzi olaraq seçilmiş Qəbələ şəhər 1, 2, 3, 4, 5 saylı tam orta məktəblərində imtahanlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi xüsusi karantin rejiminin tələbləri çərçivəsində keçirilmişdir. İmtahanlarda 1152 nəfər XI sinif şagirdi iştirak etmişdir.

# Heç kim unudulmur, heç nə yaddan çıxmır!

Vətən müharibəsində bir yumruq olaraq düşmənə qarşı mübarizəyə atılan, şəhid olan Vətən oğullarının əbədi xatirəsini daima yaşatmaq üçün Daşca və Zarağan kənd sakinlərinin birgə təşəbbüsü ilə əkilən cökə ağaclarına böyük qayğı və diqqət göstərilir.



Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin mühəndis, müəllim və tələbələrdən ibarət kollektivi Daşca kənd yolunun çay sahilində əkilmiş, şəhidlərin adı ilə ifadə olunmuş cökə ağaclarına böyük hörmət və qayğı ilə qulluq göstəriblər. Tələbələr ağacların dibini belləyib, münbitləşdirici gübrə veriblər, əhənglə ağardıblar, aqrotexniki qulluq- yəni budama göstəriblər, ağacların hamısını sulayıblar.

Təhsil Mərkəzinin mühəndis müəllimlərinin bu təşəbbüsü yetişməkdə olan gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində mühüm amildir. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin bütün mühəndis pedaqoji kollektivinə və tələbə heyətinə təmənnasız xidmətlərinə görə təşəkkür edirik.

**Teyfur ƏSƏDOV,**
**Daşca kənd sakini.**

## *Qəbələ Dövlət Tarix-Bədii Qoruğu*

# Qala bürcləri

**(Əvvəli 21 yanvar 2022-ci il tarixli sayımızda).**

Qalanın qərb tərəfində müdafiə divarlarının yerüstü qalıqları yalnız bəzi yerlərdə bilinir. Şərq tərəfdən isə Covurlu çayı qala divarlarını demək olar ki, bütünlüklə yuyub aparmışdır. Qəbələ tədqiqatçıları belə hesab edirdilər ki, Qala ərazisində Antik təbəqə olmayıb. Lakin 70-ci illərin əvvəllərində görkəmli arxeoloq Q. M. Əhmədovun rəhbərliyi ilə IV sahədə tədqiqatlar davam etdirilərkən orada I əsrə aid şərab anbarı və içərisində qiymətli avadanlıqlar, o cümlədən qızıl məmulatı olan qəbir aşkar edildi. 2009-cu ilin çöl tədqiqat mövsümündə isə Qala ərazisində Antik dövrə aid tikinti qalıqları aşkar edildi. Belə ki, XII-XV əsrlərə aid mədəni təbəqədəki bəzi quyular tərəfimizdən təmizlənərkən e. ə. I və b. e. I əsrlərinə aid çoxlu miqdarda kirəmit və iri təsərrüfat küplərinin parçaları üzə çıxdı. Həm bu tapıntılara, həm də qazıntının ayrı-ayrı kvadratlarından aşkar edilmiş nisbətən daha qədim dövr tikintiləri üçün səciyyəvi olan iri tuf daşlara təsadüf olunması yaxın ərazidə çox güman ki, öyrənilməkdə olan mədəni təbəqənin alt qatlarında Antik dövrə aid tikinti qalıqlarının mövcudluğundan xəbər verirdi. 2009-cu ildə Qalanın cənub-şərq tərəfində, Covurlu çayının sahilində, şəhərin cənub Qala divarlarından təqribən 50-60 m şimalda aparılan yoxlama qazıntısı zamanı aşkar edilən, e. ə. I və b. e. I əsrlərinə aid tikinti qalıqları bunu bir daha təsdiqlədi. Əsasən, iri ölçülü mədən daşlarından inşa edilən və qalınlığı 3 m-ə çatan bu tikinti fikirimizcə Qəbələnin ilkin qala divarlarının qalıqları idi. 2010-cu ilin tədqiqatları zamanı isə Cənubi Koreya arxeoloqları Səlbirin şimal tərəfində eyni dövrə aid və eyni üslubda inşa olunlən, 1960-cı ildə Qalanın şərq hissəsində, Covurlu çayının sahilində Ö. Ş. İsmizadə tərəfindən İlk Orta əsrlərə aid bir neçə tikinti qalığı aşkar edilib. 1961-ci ildə S. M. Qazıyevin rəhbərliyi ilə Qalanın



muş qala divarı qalıqları olduğunu müəyyən etdilər. Beləliklə, fikirimizcə 70-ci illərdə F. V. Qədirov tərəfindən Səlbirin cənub-qərbində, 2009-cu ildə tərəfimizdən Qalanın cənub-şərq tərəfində və nəhayət 2010-2013-cü illərdə Koreyalı arxeoloqlar tərəfindən Səlbirin şimal və qərb tərəflərində aşkar olunan tikinti qalıqları bütövlükdə şəhərin vahid müdafiə sistemindən ibarət olan ilkin Qala divarlarının ayrı-ayrı hissələridir. Bu, onu deməyə əsas verir ki, e. ə. I və b. e. I əsrində Qəbələ şəhəri bütövlüklə Qala və Səlbiri əhatə edən möhtəşəm qala divarlarına malik olmuşdur.

Qala ərazisində arxeoloji tədqiqatlar aparılarkən orada Orta əsrlərə aid çoxsaylı yaşayış binaları, ictimai binalar və istehsalat ocaqları üzə çıxarılmışdır. Mərkəzi hissəsində açılan ictimai bina indiyədək Qəbələ qazıntılarından bəlli olan ən nəhəng ictimai bina qalıqlarından hesab edilir. Binanın bünövrəyə yaxın hissələri iriölçülü yonulmuş əhəng daşından, üst hissəsi isə kvadrat formalı bişmiş kərpiclərdən istifadə olunmaqla inşa edilib. Ö. Ş. İsmizadə və S. M. Qazıyev tərəfindən aşkar edilən hər iki tikintinin IX əsrə aid olduğu güman edilir.

Hal-hazırda davam edən arxeoloji tədqiqatlar onu sübut edir ki, qədim Qəbələnin qalıqları yerləşən bu ərazilərdə hələ üzə çıxmamış bir çox sirlər yatır. Və bu sirlərin öyrənilməsi üçün hər il arxeoloji qazıntılar daha geniş miqyasda davam etdirilir.

**Mirazim SƏMƏDOV,**
**Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun elmi işçisi.**